# STRATEJİ TƏHLİL, PLANLAŞDIRMA VƏ KADRLARIN İDARƏOLUNMASI SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi öz fəaliyyətində Azərbaycan Respublikası qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, digər normativ-hüquqi aktları, təhsil nazirinin əmr və sərəncamlarını və şöbənin Əsasnaməsini rəhbər tutaraq təhsil siyasətinin və prioritetlərinin formalaşdırılması üzrə təkliflər hazırlayır, təhsil sisteminin səmərəliliyi ilə bağlı məlumatları təhlil edir, bütün struktur bölmələrin və təhsil müəssisələrinin fəaliyyətinin strateji və fəaliyyət planlarının hazırlanmasında iştirak edir, təhsili idarəetmə orqanları və təhsil müəssisələri tərəfindən mövcud qanunvericiliyin yerinə yetirilməsinə təşkilati-metodik köməyi həyata keçirir.

Şöbə əsas fəaliyyət dairəsinə, həmçinin Nazirliyin Strateji Planına əsaslanaraq, hesabat dövründə strateji təhlil və planlaşdırmanın müasir metodlarından istifadə edərək, idarəetmə mexanizminin təkmilləşdirilməsi sahəsində yerli təhsili idarəetmə orqanlarının fəaliyyətinin istiqamətləndirilməsi, eləcə də, Nazirliyin kadr siyasəti və strategiyası üzrə funksiyaların həyata keçirilməsi, davamlı inkişaf naminə təhsil siyasəti və strategiyasının, həmçinin, QHT və beynəlxalq təşkilatların layihələrinin həyata keçirilməsi, aparılan təhlillərin nəticələrinə əsasən strateji sənədlərin, hesabatların, islahat layihələrinin hazırlanmasında fəal iştirak etmişdir. Qeyd olunan sahələr üzrə həyata keçirilən tədbirlər və proseslər aşağıda öz əksini tapmışdır.

**I. İl ərzində strateji təhlil, planlaşdırma və idarəetmə sahəsində həyata keçirilən tədbirlər və proseslər.** 2012-ci il ərzində şöbə tərəfindən aşağıdakı işlər icra olunmuş, müvafiq tədbirlər həyata keçirilmişdir:

**1.** Təhsil sisteminin ayrı-ayrı sahələri üzrə strateji təhlillərin aparılması, müxtəlif struktur bölmələr tərəfindən səmərəli həyata keçirilən işlərin əlaqələndirilməsi, mövcud idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə Təhsil Nazirliyində strateji planlaşdırma mexanizmi tətbiq olunmaqdadır. Buna müvafiq olaraq, strateji planlaşdırma mexanizminin inkişafı istiqamətində işlər davam etdirilmiş, eləcə də, Nazirliyin Strateji Planına daxil edilmiş və Təhsil Nazirliyi tərəfindən hazırlanmış bir sıra məqsədli inkişaf proqramlarına əsaslanan və müvafiq olaraq il ərzində nəzərdə tutulan məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Həmçinin Nazirliyin cari Strateji Planı təhlil edilmiş və 2013-2015-ci illər üçün növbəti 3 illik Strateji Plan hazırlanmışdır.

**2.** Təhsil sektorunda aparılan islahatların əhatə dairəsinin tamlığı və optimallığı, eyni zamanda, dünyada təhsilin inkişaf tendensiyaları barədə məlumatlar toplanmış, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009-2014-cü illər) həyata keçirilməsi məqsədilə "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi" alt-komponenti üzrə Dünya Bankının heyəti ilə görüşlər keçirilmiş və müzakirələr aparılmışdır.

Eyni zamanda qeyd olunan illərdə həmin alt-komponent üzrə həyata keçirilən tədbirlərin İcra Planı nəzərdən keçirilmiş, həmin plana dair müzakirələr aparılmış, eləcə də İcra Planında nəzərdə tutulan tədbirlərin icra vəziyyəti ilə əlaqədar Dünya Bankının monitorinq üzrə mütəxəssisi Valid Madun ilə görüş keçirilmiş və cari ildə həyata keçirilən tədbirlər barədə rüblük hesabatlar hazırlanaraq Layihənin Əlaqələndirmə Qrupuna (LƏQ) təqdim edilmişdir.

**3.**Yanvar ayında şöbə müdiri yanında şöbənin fəaliyyətinin qiymətləndirilməsi, 2011-ci il ərzində görülən işlərə dair Hesabatlara və 2012-ci il üçün hazırlanmış İş Planının müzakirəsinə dair iclas keçirilmişdir.

İclas zamanı şöbənin hər bir işçisinin fəaliyyəti qiymətləndirilmiş, ayrı-ayrı işçilər barədə fikirlər bildirilmiş, hər bir əməkdaşa aid müəyyən nöqsan və problemləri, gələcək fəaliyyət istiqamətləri və perspektivləri haqqında ümumi məlumat verilmiş, şöbənin 2012-ci il üçün hazırlanmış İş Planı müzakirə edilmiş və nazirə təsdiq üçün təqdim edilmişdir.

**4.**2012-ci ilin yanvar ayında "İnsan Hüquqlarının tədrisi" ilə əlaqədar 2012-ci dərs ilində görülən işlər barədə Ombudsman Aparatına hesabat hazırlanıb təqdim edilmişdir.

**5.**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Nazirlər Kabinetinə "Demoqrafiya və Sağlamlıq" sorğusu üzrə, Statistika Komitəsinə isə "Demoqrafiya və əhali sakinliyi" üzrə yanvar ayında hesabatlar hazırlanmış təqdim edilmişdir.

**6.**Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli, 80 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə 2012-ci ilin yanvar və iyul aylarında, ilk və son 6 (altı) ayı ərzində görülmüş işlər barədə məlumat hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**7.**"2008-2015–ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulan tapşırıqların icrasını təmin etmək məqsədilə 2012-ci ilin yanvar ayında Təhsil Nazirliyinin gördüyü işlər barədə məlumat hazırlanmış və Nazirlər Kabinetinə göndərilmişdir.

**8.**Təhsilin bütün pillələrində sülhün, qarşılıqlı hörmətin təbliği, tolerantlıq, həmcinin miqrant və milli azlıqların cəmiyyətə inteqrasiyası, digər ölkə və xalqların mədəniyyətləri haqqında düzgün informasiyanın təşviqi və öyrədilməsi, eyni zamanda azsaylı xalqların hüquqlarının qorunması, milli azlıqlara mənsub şəxslərə dövlət tərəfindən güzəştlərin verilməsi istiqamətində 2011-2012-ci tədris ilində Təhsil Nazirliyinin gördüyü işlər barədə məlumatlar hazırlanmış və  Xarici İşlər Nazirliyinə təqdim edilmişdir.

**9.**Amerika Hüquqşünaşlar Assosiasiyası, Mərkəzi Avropa və Avrasiyada Hüquq Təşəbbüsü (ABA-CEELİ) Təşkilatı və Təhsil Nazirliyinin respublikanın ümumtəhsil məktəblərində birgə həyata keçirdiyi "Canlı Hüquq" proqramı 2012-ci dərs ilində də davam etdirilmişdir.

14 Fevral tarixində Təhsil Nazirliyində həmin Proqrama qoşulmuş ümumtəhsil məktəblərin rəhbərləri ilə iştirakçı tələbələrin təntənəli yığıncağı təşkil edilmişdir.

**10.** Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (TSİİL) (2009-2014-cü illər) "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi" alt-komponenti üzrə İcra Planında nəzərdə tutulan Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsilin idarəedilməsi üzrə menecer hazırlığı istiqamətində işlər davam etdirilmişdir. Bu baxımdan 13-29 fevral, 26 aprel-16 may və 19 sentyabr-03 oktyabr tarixlərində təhsilin idarəedilməsi üzrə mütəxəssislərin hazırlanması sahəsində işlərin təkmilləşdirilməsi məqsədilə Litva ölkəsindən cəlb olunmuş beynəlxalq məsləhətçi Rimantas Jelvis Azərbaycana səfərlərini həyata keçirmiş və həmin sahə üzrə işləri aşağıda qeyd olunan bir neçə istiqamətdə davam etdirmişdir.

***10.1. Pedaqoji Universitetin rəhbərliyi və təhsil menecmenti ixtisası üzrə tədris aparan professor-müəllim heyətindən ibarət müvafiq işçi qrupunun yaradılması və həmin işçi qrupu ilə birgə təhsil proqramının layihəsinin hazırlanması.***

Qeyd olunan müddət ərzində Pedaqoji Universitetdə təhsil menecmenti ixtisası üzrə tədris aparan professor-müəllim heyətindən ibarət müvafiq işçi qrupu yaradılmışdır. Həmin işçi qrupu ilə görüşlər keçirilmiş, Magistratura səviyyəsinin ixtisas üzrə təhsil

proqramının ilkin layihəsi beynəlxalq məsləhətçi və işçi qrupu tərəfindən nəzərdən keçirilmiş və "Magistratura səviyyəsinin təhsil menecmenti ixtisası üzrə Təhsil Proqramı"nın son layihəsi hazırlanmış, müzakirə olunmuş və Təhsil Nazirliyinə təqdim edilmişdir. Eyni zamanda, Bakalavr və Magistratura səviyyələrinin təhsil menecmenti ixtisası üzrə təhsil proqramları üçün ixtisas və seçmə fənlərin siyahısı, həmin fənlərin kredit və saatları, həmçinin Magistratura səviyyəsinin təhsil menecmenti ixtisası üzrə təhsil proqramına dair müvafiq kompetensiyalar, təlim nəticələri və həmin ixtisasın tədrisində istifadə ediləcək ədəbityyat siyahısı müəyyənləşdirilmişdir.

***10.2. Təhsil menecmenti ixtisası üzrə tədris aparan professor-müəllim heyəti üçün nəzərdə tutulan zəruri təlimlərin və bu istiqamətdə digər müvafiq tədbirlərin həyata keçirilməsi.***

Pedaqoji Universitetdə təhsil menecmenti ixtisası üzrə müəyyənləşdirilən işçi qrupu və həmin ixtisas üzrə tədris aparan professor-müəllim heyəti üçün zəruri təlimlər, görüşlər təşkil edilmiş və həyata keçirilmişdir. Görüşlər zamanı təhsil menecmenti ixtisasına aid edilən fənlərə hazırlıq prosesi, həmin fənlərin məzmunu, eyni zamanda beynəlxalq məsləhətçinin ingilis və rus dillərində müəyyənləşdirdiyi müvafiq kitab və digər vəsaitlərin siyahısı, həmin vəsaitlərin hansı istiqamətdə istifadə etmələri barədə məlumatlar verilmişdir. Həmçinin beynəlxalq məsləhətçi ilə birgə təhsil menecmenti üzrə fənlərin tədrisi üçün dərslikləri, Azərbaycan Milli Kitabxana ilə Pedaqoji Universitet arasında əməkdaşlıq razılaşmasının imzalanması və əlaqələrin yaradılması, həmin kitabxananın bütün resurslarından tam və səmərəli istifadə edilməsi və s. kimi məsələlər müzakirə edilmişdir.

***10.3. Təhsil menecmenti ixtisası üzrə tədris aparan müəllimlərin həmin ixtisasın tədrisi üzrə hazırlıq prosesinin müşahidə olunması və dərslərin dinlənilməsi.*** Pedaqoji Universitetdə idarəetmə üzrə mütəxəssislərin hazırlığı istiqamətində bakalvr səviyyəsi üzrə həmin ixtisasın tədrisi ləğv edilmiş, 2012-2013-cü tədris ilində təhsil menecmenti ixtisası üzrə magistratura səviyyəsində qəbul planı hazırlanmış və "Magistratura səviyyəsinin təhsil menecmenti ixtisası üzrə Təhsil Proqramı"nın icrasına başlanılmışdır. Qəbul planında qeyd olunan ixtisas üzrə 10 yer müəyyənləşdirilsə də, həmin ixtisas üzrə 5 tələbə qəbul olunmuşdur. Buna müvafiq olaraq, beynəlxalq məsləhətçi ilə birgə Pedaqoji Universitetdə təhsil menecmenti üzrə müəyyənləşdirilən işçi qrupu və professor-müəllim heyəti ilə görüşlər keçirilmiş, təhsil menecmenti ixtisasına aid edilən fənlərin məzmunu barədə müzakirələr aparılmış, magistratura səviyyəsində həmin ixtisas üzrə keçirilən dərslər dinlənilmiş və müəyyən tədqiqatlar aparılmışdır.

***10.4. Hesabatların hazırlanması.***

Səfərlərin sonunda beynəlxalq məsləhətçi Pedaqoji Universitetdə apardığı tədqiqatlarına və gördüyü işlərə dair Hesabatlar hazırlamışdır. Həmin Hesabatlarda təhsilin idarəolunması üzrə menecer hazırlığı istiqamətində tədrisin aparılması və bu prosesin gələcəkdə daha da təkmilləşdirilməsi məqsədilə Təhsil Nazirliyində Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin müdiri F.Qədirov, Ali və orta ixtisas təhsili şöbəsinin müdiri İ.Mustafayev və həmin şöbənin baş məsləhətçisi K.Məcidov, Dərslik və nəşriyyat şöbəsinin müdiri F.Şahbazlı, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin Əlaqələndirmə Qrupunun (LƏQ) rəhbəri E.Rüstəmov, Azərbaycan Dövlət Pedaqoji Universitetin rektoru Y.Məmmədov, həmin Universitetin tədris işləri üzrə prorektoru M.Cəbrayılov, "Pedaqogika" kafedrasının dosenti

H.Bayramov və H.Cəfərov, “İqtisadi və sosial fənlər” kafedrasının müdiri Ə.Allahverdiyev və “Xarici dillər” kafedrasının müdiri G.Alıyeva, həmçinin Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin (MTTYM) icraçı direktoru E.Kazımzadə, Xəzər Universitetinin rektoru Con Rayder (John Ryder) və həmin universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri H.İsaxanlı, Azərbaycan Müəllimlər İnstitutunun rektoru A.Naxçıvanlı, həmin İnstitutun Əlavə təhsil üzrə prorektoru R.Əzizov, “Təhsilin idarə edilməsi” kafedrasının dosenti R.Cabbarov, həmçinin həmin institutda ixtisasartırma kursu keçən məktəb direktorları və direktor müavinləri ilə birgə keçirdiyi görüş və müzakirələr, eləcə də tədqiqatlar zamanı əldə edilən nəticələr, magistratura səviyyəsinin təhsil menecmenti ixtisası üzrə təhsil proqramının təkmilləşdirilməsinə dair müəyyən istiqamətlər, həmin ixtisasa aid tədris proqramları nümunələri və ədəbiyyatların siyahısı, qeyd olunan məsələlərə dair təklif və tövsiyələr öz əksini tapmışdır.

Hesabatlar Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması, Ali və orta ixtisas təhsili şöbələrinə, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin Əlaqələndirmə Qrupuna (LƏQ) və Azərbaycan Dövlət Pedaqoji Universitetinə təqdim edilmişdir.

**11.** 24-27 fevral tarixlərində Nazirliyin 22.02.2012-ci il tarixli, 11/167 nömrəli əmri ilə orta təhsil kursu üzrə mərkəzləşdirilmiş qaydada sınaq imtahanlarının keçirilməsi məqsədilə şöbənin əməkdaşları Laçın rayonuna ezam olunmuş, imtahanlarda iştirak edən nəzarətçilərlə görüş keçirmiş, imtahan keçirilən mərkəzlərdə təşkilati işlərə nəzarət etmiş və imtahanlara rəhbərlik funksiyasını yerinə yetirmişlər. Sınaq imtahanları başa çatdıqdan sonra Hesabat hazırlanmış, Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim edilmişdir.

**12.** 16 mart tarixində “Crescent Beach” otelinin “Şah dəniz” zalında “Rayon (şəhər) təhsil şöbələrində (idarələrdə) strateji planlaşdırma mexanizminin tətbiqi” adlı növbəti seminar keçirilmişdir.

Seminarın məqsədi rayon (şəhər) təhsil şöbələrinin (idarələrin) 2011-2012-ci illər üçün hazırladıqları strateji planların monitorinqinin nəticələri və 2013-2015-ci illər üçün növbəti strateji planların hazırlanmasına dair müzakirələrin aparılması, həmçinin yerlərdə strateji planlaşdırma mexanizminin tətbiqi vasitəsilə idarəetmə sisteminin təkmilləşdirilməsi olmuşdur.

Seminar iştirakçılarına rayon (şəhər) təhsil şöbələrinin (idarələrin) 2011-2012-ci illər üçün hazırladıqları strateji planların monitorinqinin nəticələri, 2013-2015-ci illər üçün növbəti strateji planların hazırlanması, yerlərdə müvafiq işçi qrupunun yaradılması və bu prosesə maraqlı tərəflərin cəlb edilməsi, strateji planın elementləri, fəaliyyət və büdcə planlarının hazırlanması barədə təqdimat vasitəsilə ətraflı məlumat verilmiş, seminar iştirakçıları ilə birgə qruplarda praktiki işlər aparılmış, strateji planlaşdırma mexanizminə dair sorğu vərəqələri doldurulmuş və növbəti strateji planların cari ilin oktyabr ayına qədər Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə təqdim edilməsi tapşırığı verilmişdir.

“Rayon (şəhər) təhsil şöbələrində (idarələrdə) strateji planlaşdırma mexanizmi üzrə məsul şəxslərlə həmin istiqamətdə bilik və bacarıqlar səviyyəsinin müəyyənləşdirilməsinə dair aparılan sorğu nəticələri şöbədə nəzərdən keçirilmiş və təhlil edilmişdir. Həmin sorğu nəticələrinə əsasən sorğu vərəqələrində əks olunan strateji planlaşdırma mexanizminin tətbiqinə dair sualların məsul şəxslər tərəfindən hansı səviyyədə cavablandırılması, eyni zamanda strateji planlaşdırma üzrə bilik və bacarıqlar səviyyəsi müəyyənləşdirilmişdir.

Həmçinin rayon (şəhər) təhsil şöbələrinin (idarələrin) növbəti 2013-2015-ci illər üçün strateji planları şöbəyə təqdim edilmişdir. Hazırda həmin planların təhlili prosesi şöbədə davam etdirilir və 2013-cü ilin ilk aylarında təsdiq edilməsi nəzərdə tutulmuşdur.

**13.** 11 may tarixində ABŞ-ın ölkəmizdəki səfirliyi, Təhsil Nazirliyi, ABŞ Təhsilli Azərbaycan Məzunları İctimai Birliyi (US-Educated Azerbaijani Alumni Association), Beynəlxalq Tədqiqatlar və Mübadilə Şurasının (İREX) birgə təşkilatçılığı ilə “Azərbaycan təhsilində gələcək inkişaf” adlı təhsil forumu keçirilmiş və şöbənin əməkdaşı V.Əbdülrəhimov həmin tədbirdə iştirak etmişdir. Həmçinin tədbirdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, Mərkəzi Bankın, universitetlərin, məktəblərin və özəl təhsil ocaqlarının nümayəndələri iştirak etmişlər.

Tədbirdə ABŞ Təhsilli Azərbaycan Məzunları İctimai Birliyinin yaranması, fəaliyyəti və ABŞ-da təhsil alan azərbaycanlı gənclərin hər iki ölkə arasındakı əlaqələrin və işgüzar münasibətlərinin möhkəmləndirilməsi məqsədilə gələcək planlar barədə ətraflı məlumatlar verilmiş, həmçinin Azərbaycan ilə ABŞ arasında münasibətlərin daha da genişləndirilməsinin vacibliyi və təhsil mübadilə proqramlarının əhəmiyyəti vurğulanmışdır.

Eyni zamanda ABŞ-da təhsil alan azərbaycanlı gənclər “Təhsilin idarə edilməsi”, “Xaricdə təhsil”, “Xüsusi qayğıya ehtiyacı olan və sağlamlıq imkanları məhdud uşaqlarla iş” mövzuları ilə təqdimatlar etmiş və bu istiqamətlərdə müstəqil fikirlərini tədbir iştirakçılarına çatdırmışlar.

**14.** 23-28 sentyabr 2012-ci il tarixlərdə Təhsil Nazirliyinin əmrilə şöbədə fəaliyyət göstərən “Əlavə təhsil” sektorunun müdiri Z.Kəlbəliyev Finlandiyanın Helsinki şəhərinə ezam olunmuşdur.

Səfərin məqsədi “Finlandiyada təhsil sistemi, məktəbəqədər və ümumi təhsil, onun təşkili və idarə olunması, ali təhsil müəssisələrində müəllim hazırlığı sahəsində iş təcrübəsinin öyrənilməsi”ndən ibarət olmuşdur. Səfər çərçivəsində Finlandiyanın təhsili idarəetmə strukturlarında, məktəbəqədər, ümumi təhsil və ali təhsil müəssisələrində çoxsaylı görüşlər və müzakirələr aparılmış, ayrı-ayrı mütəxəssislərin təqdimatları dinlənilmişdir.

**15.** 20 oktyabr tarixində “Qafqaz” Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyinin 10-cu ildönümünə həsr edilmiş 2012-2013-cü dərs ilinin başlanması ilə əlaqədar təhsildə fərqlənmiş şagirdlərin “Təhsilimizin Ulduzları” adlı mükafatlandırma mərasimi keçirilmiş və şöbənin əməkdaşları həmin tədbirdə iştirak etmişlər.

Tədbir “Çağ” Öyrətim İşlətmələri Şirkəti (GÖİŞ) və Qafqaz Universiteti tərəfindən təşkil olunaraq, Milli Məclisin deputatlarının, təhsil naziri, professor Misir Mərdanovun, Qafqaz Universitetinin rektoru, professor Əhməd Saniçin, Türkiyənin Bakıdakı səfiri İsmail Alper Coşkunun, “Çağ” Öyrətim İşlətmələri Şirkəti idarə heyətinin sədri Ənvər Özərənin, təhsil işçilərinin, alimlərin iştirakı ilə keçirilmişdir.

Tədbirdə Azərbaycan-Türkiyə özəl liseylərinin və “Araz” kurslarının 2012-ci il məzunlarının ali məktəblərə qəbulu, Azərbaycan-Türkiyə özəl liseylərinin 2012-ci ildə keçirilmiş Beynəlxalq fənn olimpiadaları və müsabiqələrin yekunları ilə bağlı məlumatlar verilmiş, həmçinin yüksək ballarla ali təhsil müəssisələrinə qəbul olunmuş məzunlar, təhsildə fərqlənən müvafiq liseylərin şagirdləri və Qafqaz Universitetinin tələbələri mükafatlandırılmışlar.

**16.** 19-24 noyabr tarixlərində şöbənin aparıcı məsləhətçiləri V.Əbdülrəhimov və N.Əliyev "Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində həyata keçirilən "Strateji idarəçilik və korporativ idarəetmə" mövzusuna dair yerli təlimlərdə iştirak etmişlər.

Təlimlər zamanı **strateji idarəetmə üzrə** "Strateji idarəetmə və onun əsasları", "Strateji planlaşdırmanın məzmunu və konsepsiyaları", "Korporativ və funksional strategiya", "Layihələrin idarəedilməsi", "Liderlik", "Dəyişikliklərin idarəedilməsi", "Effektiv təqdimat bacarıqları", **korporativ idarəetmə üzrə** "Korporativ idarəetmə və korporativ mədəniyyət", "Korporativ idarəetmənin funksiyaları, prinsipləri və modelləri", "Korporativ mədəniyyətdə etik davranışa təsir edən amillər", "Korporativ mədəniyyətin ünsürləri", "Korporativ mədəniyyətin əsas xüsusiyyətləri", "Korporativ mədəniyyətə təsir edən faktorlar", "Korporativ sosial məsuliyyət və onun fəaliyyətləri" mövzularına dair təqdimatlar keçirilmiş və dinlənilmiş, həmin mövzular ətrafında müzakirərlər və iştirakçılarla birgə qruplarda praktiki işlər aparılmışdır.

Təlimlər zamanı strateji düşünmənin formalaşdırılması yolları, strateji düşünmə ilə planlaşdrımanı bir-biri ilə əlaqləndirərək işləri vahid nəticəyə istiqamətləndirmək, yaradıcı düşünmək, idarəetmə münasibətlərinin hörmət, səmimilik, səmərəlilik, məsuliyyətlilik, liderlik, keyfiyyətlilik və s. kimi dəyərlər vasitəsilə tənzimlənməsi, strateji təhlillər aparmaq, nəzərdə tutulan işləri strateji planlaşdırmaq, strateji və gələcək fəaliyyət istqamətlərinə uyğun görüləcək işləri həyata keçirmək üçün sistemli hazır olmaq, gələcəyə dair real və düzgün qərarlar vermək, məntiqi qərarlar qəbul etmək, sistemli müşahidəni həyata keçirmək, strateji nöqteyi-nəzərdən yaranan dəyişikliklərə uyğunlaşmaq – hər hansı dəyişikliyə qarşı necə müdafiə oluna bilmək deyil, hər hansı dəyişiklik fürsətindən necə faydalana bilmək (dəyişikliyə yox, dəyişdirilməyə müqavimət göstərmək), yeni və yaradıcı təkliflər verə bilmək istiqamətlərində bilik və bacarıqlar əldə edilmişdir.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilmişdir.

**17.** 2012-ci ilin dekabr ayında 2007-2011-ci illər ərzində "Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı görülmüş işlər barədə 4 (dörd) illik hesabat Prezident Administrasiyasına, bir illik hesabat isə Nazirlər Kabinetinə hazırlanıb təqdim edilmişdir.

**18.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 05 sentyabr tarixli, 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" nın icrası ilə bağlı Təhsil Nazirliyinin Fəaliyyət Planları hazırlanmış və təsdiq üçün rəhbərliyə təqdim edilmişdir.

**19.** Hesabat dövründə "Ömürboyu Təhsil" üzrə "Milli Kvalifikasiya Çərçivəsi"nin işlənib hazırlanması məqsədilə yaradılmış işçi qrupun tərkibində müzakirələr aparılmışdır. Şöbənin əməkdaşları həmin müzakirələrdə və "Milli Kvalifikasiya Çərçivəsi" sənədinin yekun variantının hazırlanmasına dair müvafiq tövsiyələrin verilməsi məqsədi ilə 05-06 iyun tarixlərində "Milli kvalifikasiyalar çərçivəsinin tətbiqi: problemlər və perspektivlər" mövzusunda Bakı şəhərində keçirilmiş beynəlxalq seminarda iştirak etmişlər.

**20.** 2011-2012-ci dərs ilində YUNİSEF, Təhsil və Fövqəladə Hallar Nazirlikləri ilə birgə "Təhsildə fəlakət riskinin aradan qaldırılması" (DİPECHO) layihəsi davam etdirilmişdir. Layihə çərçivəsinə işçi qrupunun müntəzəm görüşləri keçirilmiş və müzakirələr aparılmışdır. Tədbirlər planına yuğun olaraq Təhsil və Fövqəladə Hallar Nazirlikləri tərəfindən seçilmiş 6 region üzrə

(Bakı şəhəri, Şamaxı, Şəki, Zaqatala, Sabirabad və Saatlı rayonları) 10 pilot məktəbdə görüşlər və müxtəlif tədbirlər keçirilmişdir.

- Həmin layihənin davamı olaraq Qəbələ və Salyan rayonlarında eləcə də Şamaxı, Şəki, Zaqatala, Sabirabad və Saatlı rayonlarında məkəb psixoloqlarına və məktəb rəhbərlərinə 2012-ci ilin dekabr ayında "Məktəbdə təhlükəsizliyin təmin edilməsi" mövzusunda təlimlər keçirilmişdir.
- UNİSEF və Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə hazırda layihə çərçivəsində həmin rayonların ümumtəhsil məktəblərində Həyati Bacarıqlar kursunu tədris edən müəllimlər üçün bir günlük təlimlər keçirilməkdədir.

**21.** 2012-ci ildə Təhsil Nazirliyi və "British Council" təşkilatı ilə birgə həyata keçirdiyi "Ümumtəhsil məktəblərində ingilis dilinin intensiv tədrisi layihəsi" I-IV və V-VIII siniflərdə davam etdirilmişdir.

- Həmin layihə çərçivəsində I siniflərdə dərs deyən 50, VIII siniflərdə dərs deyən 50 ingilis dili müəllimi üçün 2012-ci ilin sentyabr ayında üç günlük seminar keçirilmiş və həmin müəllimlərə sertifikatlar təqdim edilmişdir. Xarici dillərin intensiv və səmərəli öyrədilməsi üçün müasir təlim strategiyalarının tətbiqi, bu sahədə aparılan eksperimentlərin genişləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsinə uyğun olaraq may-iyul aylarında respublikanın rayonlarında bir günlük təlimlər keçirilmişdir.
- 2012-ci ilin aprel-may ayları ərzində təlimçi müəllimlər tərəfindən dərslərin müşahidəsi keçirilmiş və hazırda bu iş davam etdirilir.

**22.** Azərbaycan və Avropa İttifaqı arasında Qonşuluq siyasəti çərçivəsində qəbul edilmiş Fəaliyyət Planının (FR) müddəalarının icrası üzrə Təhsil Nazirliyi tərəfindən 2012-ci ildə görülmüş işlər barədə məlumat hazırlanmış və Nazirliyin Beynəlxalq əlaqələr şöbəsinə təqdim edilmişdir.

**23.** Azərbaycan Respublikası Prezidentinin "İcra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında" 26 oktyabr 2006-cı il tarixli, 472 nömrəli Fərmanının icrası ilə əlaqədar 2011-2012-ci illərdə ölkə Prezidenti tərəfindən imzalanmış Fərman və Sərəncamlar üzrə görülmüş işlər barədə məlumatlar hazırlanmış və Prezident Administrasiyasına göndərilmişdir. Həmin məlumatlarda Dövlət Proqramlarında, Milli Fəaliyyət və Tədbirlər Planlarında icrası 2011-2012-ci illər üçün nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, görülən işlərin keyfiyyəti və kəmiyyəti barədə məlumatlar öz əksini tapmışdır.

**24.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 iyun tarixli, 1578 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015–ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planına (2011-2015-ci illər) uyğun olaraq Təhsil Nazirliyinə həvalə edilmiş tədbirlərin yerinə yetirilməsi barədə 2012-ci ilin ilk 6 (altı) ayı ərzində görülmüş işlərə dair məlumatlar İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**25.** Azərbaycan Respublikası Prezidentinin 15.11.2011-ci il tarixli, 1836 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar 2012-ci ilin ilk 6 (altı) ayı ərzində Təhsil Nazirliyi tərəfindən görülmüş işlər barədə məlumat hazırlanmış və həmin məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir.

**26.** Azərbaycan Respublikasında Minilliyin İnkişaf Məqsədləri (MİM) sahəsində görülən işlər barədə İcra Hesabatına baxılmış və Təhsil Nazirliyi tərəfindən rəy və təkliflər hazırlanmışdır.

Minilliyin İnkişaf Məqsədlərindən biri olan “Ümumi ibtidai təhsilə nail olmaq” məqsədi üzrə 2011-2012-ci dərs ilində Təhsil Nazirliyinin gördüyü işlər barədə məlumatlar hazırlanmış və BMT çərçivəsində 2015-ci ildən sonrakı müddəti əhatə edən Qlobal Davamlı İnkişaf Məqsədlərinin hazırlanması ilə bağlı sorğular əsasında məlumatlar hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**27.** Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Gənclər və İdman Nazirliyinin aidiyyəti dövlət qurumları ilə birlikdə hazırladığı “Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının icrası ilə əlaqədar 2012-ci ilin 6 (altı) ayı ərzində Təhsil Nazirliyi tərəfindən görülmüş işlərlə bağlı məlumatlar hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir.

**28.** 2012-ci ildə UNİCEF-in Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi “Məktəb uşağın dostudur” layihəsi çərçivəsində Bakı, Sumqayıt, Mingəçevir, Gəncə, Lənkəran şəhər, Masallı, Şəki, Şamaxı, İsmayıllı, Şəmkir, Qazax, Quba, Qusar, Ağdaş, Göycay Beyləqan, İmişli və Füzuli rayonlarının ümumtəhsil məktəblərində keyfiyyət standartlarının tətbiqinin təkmilləşdirilməsi, sağlam və daha yaxşı mühitin dəstəklənməsi, MUD keyfiyyət standartlarının uyğunluğunun yoxlanılması məqsədilə 300 ümumtəhsil məktəbində Valideyn–Müəllim–Assosiasiyaları və mütəxəssisləri tərəfindən monitorinqlər keçirilmişdir. Monitorinqlər 2012-2013-cü tədris ili boyunca davam etdiriləcəkdir.

**29.** Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının (2009-2013-cü illər) təsdiq edilməsi” haqqında 06.02.2009-cu il tarixli, 133 nömrəli Sərəncamının icrasına uyğun olaraq Beynəlxalq Miqrasiya Təşkilatı, Daxili İşlər və Təhsil Nazirliklərinin birgə həyata keçirdiyi “Azərbaycanda insan alverinin qarşısının alınması üzrə orta məktəb təhsili” layihəsi 2012-ci dərs ilində davam etdirilmiş, seçilmiş 15 pilot məktəbində dəyirmi masa, maarifləndirmə tədbirləri və seminar keçirilmişdir. 2013-cü ilin mart ayında həmin məktəbin müəllimləri üçün təlimlərin keçirilməsi planlaşdırılmışdır.

**30.** 2011-2012-ci dərs ilində Bakı şəhəri üzrə 35 və respublikanın rayonları üzrə 15 ümumtəhsil məktəblərinin I və V siniflərində “Rus dilinin intensiv tədrisi” layihəsi davam etdirilmişdir.

Layihə çərçivəsində may-iyun aylarında rus dili fənni üzrə şagirdlərin olimpiadası keçirilmiş və qaliblərə mükafatlar təqdim edilmişdir. Həmçinin İl ərzində “Ən yaxşı rus dili müəllimi” müsabiqəsi keçirilmiş və qalib müəllimlər mükafatlandırılmışdır. Layihə çərçivəsində konfrans, təlim, dəyirmi masa, yubiley şənlikləri, müxtəlif əyləncəli tədbirlər təşkil edilmiş və həyata keçirilmişdir.

Rusiya ilə əməkdaşlıq təşəbbüsləri Federal agentliyinin ölkəmizdə birgə həyata keçirdikləri layihə çərçivəsində Xaçmaz, Lənkəran və Zaqatala rayonlarında dayaq mərkəzləri yaradılmışdır. 14-16 noyabr tarixlərində Zaqatala rayonu 2 nömrəli məktəb, 28-29 noyabr tarixlərində isə Xaçmaz rayonu Akademik Zərifə Əliyeva adına 8 nömrəli məktəbdə “Rus dilinin öyrənilməsi və tədrisində müasir texnologiyalardan istifadə edilməsi” mövzusunda elmi-praktik konfrans, seminar və dəyirmi masa keçirilmişdir. Həmin konfransda Moskvadan dəvət edilmiş mütəxəssis, alim və akademiklər iştirak etmişdir. Həmin tədbirlərdə Rusiyanın Azərbaycandakı səfiri M.Doroxin şəxsən iştirak etmişdir.

Dayaq mərkəzlərinin fəaliyyəti ilə bağlı 2012-2013-cü illər üzrə Tədbirlər planı hazırlanmış və 20 dekabr 2012-ci tarixdə təsdiq edilmişdir.

**31.** 2012-ci ildə "ANS" Müstəqil Yayım və Media Şirkəti Təhsil Nazirliyi ilə birgə hazırlanan 11-ci sinif şagirdlərinin iştirakı ilə "Ağıl Dəryası" əyləncə və intellektual yarış xarakterli layihə davam etdirilmişdir. Həmin yarışın şəffaf həyata keçirilməsi üçün layihə çərçivəsində 9 fənn müəllimlərindən ibarət işçi qrupu tərəfindən fənlər üzrə testlər hazırlanaraq layihə rəhbərinə təqdim edilmişdir.

Layihə iştirakçıları arasından 3 nəfər şagird I, II və III yerləri tutmuş, həmin şagirdlər buraxılış imtahanından azad olunaraq təhsil sənədi əldə etmişlər. 2 (iki) nəfər qalib şagirdlərin təhsil xərcləri Universitet tərəfindən ödənilməklə Kiprdə ali təhsil almaq üçün həmin ölkəyə göndərilmişlər.

**32.** Təhsil Nazirliyində planlaşdırılmış tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi məqsədilə araşdırmalar aparılaraq, müəyyən olunmuş dövlət sənədlərindən çıxarışlar edilmiş və tövsiyələr hazırlanmışdır. Eyni zamanda, Təhsil Nazirliyinin, digər dövlət müəssisələrinin, beynəlxalq və milli QHT-lərin, maliyyə qurumların fəaliyyət planlarında əks olunan təhsil sahəsinə dair məsələlər müəyyənləşdirilmiş və əlaqələndirilmişdir.

**33.** Təhsil sektorunda aparılan islahatların ardıcıllığı və əhatəliliyinin təmin edilməsi, təhsil sistemində formalaşan İnstitusional Tətbiqi-Tədqiqat Şəbəkəsinin tətbiqetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə şöbə tərəfindən müəyyən araşdırmalar aparılmış və tədqiqat sahəsində fəaliyyət göstərən beynəlxalq qurumların məqsəd və vəzifələri nəzərdən keçirilmişdir. Buna müvafiq olaraq, tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi və təcrübə mübadiləsi aparmaq məqsədilə Təhsil Nazirliyinin struktur bölmələrinə və tabelikdə olan digər müvafiq təşkilatlara həmin beynəlxalq qurumlarla əlaqələrin qurulması və təcrübələrin öyrənilməsi tövsiyə olunmuşdur.

**34.** Şöbələrdən daxil olan statistik və yazılı məlumatlar ümumiləşdirilmiş, yekun məlumatlar hazırlanmış, il ərzində şöbəyə daxil olan məktublara, ərizə və şikayətlərə, nəzarət xarakterli sənədlərə baxılmış və həmin sənədlər icra olunmuşdur.

**35.** Eyni zamanda, şöbənin əməkdaşları mütəmadi olaraq vətəndaşların qəbulu prosesində iştirak edərək, onların müraciətlərinə və şikayətlərinə aidiyyatı üzrə cavab verilmişdir.

**36.** Həmçinin, Nazirliyin "Qaynar Xətt" xidmətinə daxil olan məlumatlar araşdırılmış, təhlil edilmiş və nəticələr ilə bağlı Arayış hazırlanmışdır.

**37.** İl ərzində şöbənin İş Planında əsk olunan tədbirlər nəzərdən keçirilmiş və əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərin icrası barədə şöbə müdirinə məlumat verilmişdir.

**38.** Nazirlikdə strateji planlaşdırmanın icrası prosesini nəzərə alaraq, şöbələrin il ərzində gördükləri işlərə dair hesabatları nəzərdən keçirilmiş və müvafiq struktur bölmələrlə birgə Nazirliyin 2012-ci ildə gördüyü işlərə dair ümumi hesabatı hazırlanmışdır.

**39.** Təhsil Nazirliyinin illik fəaliyyət planı nəzərdən keçirilərək, görülən işlər qiymətləndirilmiş və düzəlişlərə dair tövsiyələr verilmiş, təhsil sektorunda aparılan islahatların əhatə dairəsinin bütövlüyü və səmərəliliyi haqqında məlumatlar toplanmış və təhlillər aparılmışdır.

**II. İl ərzində təhsil nazirliyinin mərkəzi aparatinda və təhsil sistemində kadrlarin idarə olunmasi sahəsi üzrə şöbə tərəfindən görülən işlərin icra vəziyyəti.** Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Dövlət qulluğu haqqında"qanunlarına, Təhsil Nazirliyinin normativ hüquqi sənədlərinə və Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin Fəaliyyət Planına uyğun olaraq Nazirliyin mərkəzi aparatında və təhsil sistemində kadrların idarə olunması sahəsi üzrə şöbə tərəfindən 2012-ci ildə aşağıdakı işlər həyata keçirilmişdir:

**1.**Respublikanın ümumi təhsil məktəblərində bütün fənlər üzrə müəllimlərə olan tələbatı müəyyənləşdirmək məqsədilə yerli təhsili idarəetmə orqanlarından məlumatlar toplanaraq təhlili aparılmış və ümumiləşdirilmişdir. Müəyyən edilmişdir ki, respublikanın ümumi təhsil məktəblərində bütün fənlər üzrə 2792 müəllimə ehtiyac vardır. Kadra ciddi ehtiyac olan rayonlardan Ağsu (107 nəfər), Quba (142 nəfər), Şabran (90 nəfər), İmişli (99 nəfər), Yardımlı (116 nəfər), Gədəbəy (117 nəfər), Lerik (96 nəfər), Saatlı (198 nəfər), Şamaxı (115 nəfər) və s. qeyd etmək olar.

**2.**“Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında “Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 aprel 2010-cu il tarixli 67 nömrəli Qərarına uyğun olaraq əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin tətbiqi məqsədilə respublikanın 900 ümumi təhsil məktəbinə limit yeri ayrılmış, onlardan 100 yer Naxçıvan Muxtar Respublikasının ümumi təhsil məktəbləri üçün nəzərdə tutulmuşdur.

**3.**2012/2013-cü tədris ilində respublikanın ümumi təhsil müəssisələrinə və peşə liseylərinə müəllimlərin işə qəbulunun təşkili məqsədilə normativ və reqlamentləşdirici sənədlər, meyarlar, elektron resurslar, eyni zamanda işə qəbulun proqram təminatı təkmilləşdirilmiş və tətbiq edilmişdir. Bununla əlaqədar yerli təhsili idarəetmə orqanlarından daxil olan təqdimatlar əsasında vakant yerlər barədə məlumatlar və reqlamentləşdirici qaydalar hazırlanmış, Təhsil Nazirliyinin rəsmi internet saytındakı “Müəllimlərin işə qəbulu” bölməsində və “Azərbaycan müəllimi” qəzetində elanların verilməsi təmin edilmişdir. Müsabiqədə iştirak etmək istəyənlər - 3270 vakant yerə 16195 nəfər elektron ərizələrlə müraciət etmiş və qəbul olunmuş meyarlar əsasında ilkin qiymәyləndirmə aparılmışdır. Vakant yerlərə işə qəbul üzrə 23 iyul-29 avqust tarixlərində müvafiq kompüter proqramı vasitəsilə keçirilən test imtahanlarında 15467 müəllim iştirak etmiş, həmin kompüter proqramı tərəfindən nəticələr qiymətləndirilmiş, yalnız 2263 nəfər hər iki mərhələdən müvəffəqiyyətlə keçmiş, onlardan həvəsləndirmə tədbirlərinin tətbiqi nəzərdə tutulmuş ümumi təhsil məktəblərini seçmiş namizədlərə stimullaşdırıcı tədbirlər və güzəştlər tətbiq edilməklə Təhsil Nazirliyinin müvafiq məktubları ilə iş yerlərinə göndərilmişlər.

Nazirliyin rəsmi internet saytındakı “Müəllimlərin işə qəbulu” bölməsində hər bir namizəd üçün fərdi “şəxsi kabinet” açılmış, müvafiq məlumatlar və nəticələr birbaşa namizədlərin “şəxsi kabinet”inə göndərilmişdir.

Təhsil Nazirliyinin “2012/2013-cü dərs ilində ümumi təhsil məktəblərində və peşə liseylərində vakant yerlərə müəllimlərin işə qəbulunun təşkili barədə” 13.06.2012-ci il tarixli, 1093 nömrəli əmrinə müvafiq olaraq, rayonların ümumi təhsil məktəblərində müsabiqədən sonra yaranmış və imtina olunmuş vakant yerlərə müsabiqədə yüksək bal toplamış, lakin topladığı balın seçdiyi məktəbdəki vakant yeri tutmasına kifayət etməmiş kadların əlavə yerləşdirilməsi həyata keçirilmişdir. Beləliklə, Şuşa, Hacıqabul, Siyəzən, Xocalı, Yevlax, Ağcabədi, Oguz, Xızı, Salyan, İsmayıllı, Qusar, Gəncə, Astara, Samux, Masallı, Lerik. Yardımlı, Xaçmaz, Qax, Kürdəmir, Ağsu, Gədəbəy, Şəmkir, Goranboy, Göygöl, Laçın, Ucar, Mingəçevir, Agstafa, Neftçala, Daşkəsən, Tərtər, Biləsuvar, Cəlilabad rayonlarının ümumi təhsil məktəblərində vakant yerlərə yüksək bal toplamış və adı ehtiyat kadrlar siyahısına düşmüş kadrların işə qəbulu həyata keçirilmişdir. Həmin kadrlar işə qəbul edilməmişdən əvvəl hər birinin təhsil sənədinin dövlət sənədi olub-olmaması texniki vasitələrdən və Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının məlumat bazasından istifadə edilməklə yoxlanılmış, bundan sonra onların

işlə təmin olunmasına icazə verilməsi barədə qərar qəbul edilmişdir. 2012/2013-cü dərs ilində ümumi təhsil məktəblərinə qəbul olunmuş kadrlar ümumilikdə 2797 nəfər təşkil etmişdir.

Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.04.2010-cu il tarixli 67 nömrəli Qərarına uyğun rayonların ümumi təhsil məktəblərinə ayrılmış, lakin vakant qalmış stimullaşdırıcı tədbirlərin və güzəştlərin 2012/2013-cü dərs ilindən əmək fəaliyyətinə başlamış müəllimlərə tətbiqi üçün rayon təhsil şöbələrinin təqdimatlarına baxılaraq təhlili aparılmış və həmin həvəsləndirmə tədbirlərinin tətbiqinə icazə verilməsi barədə nazirin imzası ilə yerlərə (Astara, Masallı, Lerik, Cəlilabad,İsmayıllı, İmişli,Ağcabədi, Goranboy) müvafiq məktublar göndərilmişdir.

17 noyabr tarixində müəllimlərin işə qəbulunun nəticələri ilə bağlı "2012-2013-cü tədris ilində respublikanın ümumtəhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin nəticələri" adlı məruzə-təqdimat əsasında Kollegiya iclası keçirilmiş və nəticələr müzakirə edilmişdir.

**4.** Əmək qanunvericiliyində aparılmış dəyişikliklə bağlı 65 və daha yuxarı yaş həddinə çatmış müəllimlərlə bağlanmış əmək müqaviləsinin ləğvi, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi" haqqında Qərarına əsasən pedaqoji işçilərin həftəlik dərs yükü normasının 24 saat müəyyənləşdirilməsi, ümumiyyətlə məktəblərdə kadr çatışmazlığı probleminin mövcud olması nəticəsində məktəblərdə yaranmış vakansiyanı aradan qaldırmaq və dərs saatlarının boş keçməsinin qarşısını almaq məqsədilə 2 stavka dərs yükünə malik müəllimlərin həftədə 12 saata qədər əlavə dərs, Təhsil Nazirliyinin 11 dekabr 1996-cı il tarixli 46-17-3490/16№-li təlimati sənədini əsas götürərək bir müəllimin iki sinif rəhbərliyi aparmasına, Təhsil Nazirliyinin 26 yanvar 1999-cu il tarixli 59 №-li əmrini nəzərə alaraq məktəb rəhbərlərinin ixtisasları üzrə əlavə 6 saatadək dərs, 16 avqust 2002-ci il tarixli 46-18-4304/16№-li təlimati sənədinə uyğun olaraq ibtidai sinif müəllimlərinə iki sinif komplektində dərs və bir müəllimin iki sinif rəhbərliyi aparmasına icazə verilməsi barədə rayon təhsil şöbələrinin təqdimatları Təhsil Nazirliyinə təqdim edilmiş hasabatlardakı göstəricilərlə tutuşdurularaq müqayisə edilmiş və müvafiq sənədlər hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir.

**5.** "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklilər edilməsi haqqında" Azərbaycan Respublikasının 17 may 2011-ci il tarixli 127-İVDQ nömrəli Qanununun icrası ilə bağlı Təhsil Nazirliyinin 15.07.2011-ci il tarixli 1404 nömrəli əmrinə əsasən sistem üzrə nomenklaturaya daxil olan və yaşı 65-dən yuxarı respublika üzrə 7 orta ixtisas təhsil müəssisəsinin direktoru, 3 ilk-peşə ixtisası təhsil müəsisəsinin direktoru, məktəb direktoru ilə əmək müqavilələri ləğv edilərək, bir il müddətinə əmək müqaviləsinin uzadılmasına imkan yaradan meyarlara cavab verən (son bir ildə haqqında intizam tənbehi tədbiri tətbiq edilməmiş, elmi dərəcəsi və elmi adı olan, dövlət təltifi ilə təltif olunan, attestasiyadan 2 dəfə müvəffəqiyyətlə çıxan, "Ən yaxşı müəllim müsabiqəsi"nin qalibi olması, təhsil müəssisəsində ixtisaslı kadr və ya işçini başqası ilə əvəz etmək mümkün olmadıqda, səhhəti vəzifəsini icra etməyə imkan verdiyi halda, cəmiyyətdə və işçilər arasında nüfuza malik olduqda) həmin rəhbər işçilərlə bir illik əmək müqavilələri bağlanmışdır.

**6.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklilər edilməsi haqqında" Azərbaycan Respublikasının 17 may 2011-ci il tarixli 126-İVDQ nömrəli Qanununun icrası ilə bağlı imzalanmış Təhsil Nazirliyinin 15.07.2011-ci il tarixli 1405 nömrəli əmrilə sistem üzrə nomenklaturaya daxil olan və yaşı 65-dən yuxarı nazirlikdə və təhsili yerli idarəetmə orqanlarında çalışan dövlət qulluqçuları ilə bağlanmış əmək müqaviləsi ləğv edilmiş,

Nazirlik üzrə 5, rayon təhsil şöbələri üzrə 12 nəfərlə (cəmi 17 nəfərlə) bir illik əmək müqaviləsi bağlanmışdır.

**7.** Ümumtəhsil məktəbləri direktorlarının işə qəbulunun şəffaf və obyektiv keçirilməsini təmin etmək məqsədilə 01 mart 2012-ci il, 23 aprel 2012-ci il, 01 noyabr 2012-ci il tarixlərdə respublikanın ümumi təhsil məktəblərində vakant direktor vəzifəsinə təqdim olunmuş namizədlərin sənədləri araşdırılmış, onların göstəricilərinin məktəb direktoru vəzifəsinə qoyulmuş tələblərə cavab verilməsi müəyyənləşdirildikdən sonra mərkəzləşdirilmiş qaydada test imtahanları keçirilmişdir. Beləliklə, 01 mart 2012-ci il tarixdə 221 namizəddən 171 nəfər, 23 aprel 2012-ci il tarixdə 118 namizəddən 73 nəfər, 01 noyabr 2012-ci il tarixdə 102 nəfərdən 59 nəfər test imtahanından, nazir və aidiyyəti struktur bölmə rəhbərlərindən ibarət komissiyadan keçərək vəzifəyə təyin edilmələri barədə əmrlər hazırlanmış və yerli təhsili idarəetmə orqanlarına göndərilmişdir. 12 sentyabr 2012-ci il tarixdə müsabiqədən keçən 15 namizəd Bakı şəhəri üzrə ümumi təhsil məktəblərində vakant olan direktor vəzifəsinə təyin edilmişdir.

**8.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən 6-9-cu təsnifat inzibati dövlət qulluğu vəzifələri üzrə yaranmış vakansiyanın tutulması müsabiqə və ya müsahibə yolu ilə həyata keçirilməlidir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən vakant yerin müsabiqə və ya müsahibə yolu ilə tutulması üçün verilmiş elan əsasında namizədlərin sənədlərinin qəbulu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.09.2009-cu il tarixli, 143 nömrəli Qərarı ilə təsdiq olunmuş "İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri" nəzərə alınmaqla hazırlanmış 6-9-cu təsnifat inzibati vəzifələr üzrə vəzifə təlimatlarına uyğun aparılmalıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyasının 18.11.2011-ci il tarixli, 01/06/1830-DQ-ST nömrəli məktubuna əsasən dövlət qulluğu vəsifəsinin təsnifatını, qulluq funksiyalarını, kompüter biliklərinə və təhsilə, dil bacarıqlarına qoyulmuş şərtləri və s. özündə əks etdirən və təhsil sisteminə daxil olan 6-9-cu təsnifat hər bir inzibati vəzifə üçün vəzifə təlimatı hazırlanmış, Nazirliyin əmri ilə təsdiqlənərək vakant vəzifələrin tutulması zamanı istifadə və "Təşkilati-hüquqi sənədlər və inzibati vəzifələr haqqında Məlumat Toplusu"na daxil edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim olunmuşdur.

Həmin əmrlə Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə Təhsil Nazirliyinin aparatının və yerli təhsili idarəetmə orqanlarının ştat cədvəllərində inzibati vəzifələrin adında və ştatlardakı dəyişikliklərlə bağlı məlumatların və yeni vəzifə təlimatlarının hazırlanaraq vaxtında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim olunması tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli 143№-li Qərarı ilə təsdiq olunmuş "İnzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının ümumi şərtləri"nə uyğunlaşdırılmaqla hazırlanmış və Nazirliyin bütün struktur bölmə rəhbərləri ilə razılaşdırılmış Təhsil Nazirliyi sistemi üzrə inzibati vəzifələr üçün vəzifə təlimatları "Təşkilati-hüquqi sənədlər və inzibati vəzifələr haqqında Məlumat Toplusu"na daxil edilmiş, təhsil naziri və komissiya sədri tərəfindən imzalanaraq təsdiqlənmişdir.

**9.** 04 noyabr 2011-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın elan etdiyi müsabiqənin müsahibə mərhələsindən 29 nəfərdən 7 nəfər müvəffəqiyyətlə çıxaraq Xudiyeva Gülarə Kənd rayonları üzrə ümumi təhsil şöbəsində aparıcı məsləhətçi, Novruzova Pərvanə Təhsilin idarəolunmasının məlumat sistemləri

şöbəsində aparıcı məsləhətçi, Sevinc Ağayeva Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsində aparıcı məsləhətçi, İbadova Könül Akkreditasiya şöbəsində böyük məsləhətçi vəzifələrinə təyin edilmiş, digər 3 nəfər adının ehtiyat kadrlar siyahısına salınması üçün Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya göndərilmişdir.

**10.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 27 aprel 2012-ci il tarixdə elan etdiyi ümumi müsahibəyə 7 inzibati vəzifə üzrə (Təhsil Nazirliyinin Təhsil sənədlərinin tanınması işi üzrə sektorda baş məsləhətçi, Ağdam, Laçın, Şabran, Füzuli rayon təhsil şöbələrində baş mühasib, Yardımlı Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi, Masallı Rayon Təhsil Şöbəsində müdir müavini) 7 yer çıxarılmışdır. Ümumi müsahibədə 4 nəfər dövlət qulluqçusu iştirak etmiş, onlardan Mahal Əliyev Təhsil sənədlərinin tanınması işi üzrə sektorda baş məsləhətçi, Tariyel Əkbərov Masallı Rayon Təhsil Şöbəsində müdir müavini, Cavanşir Rzayev Yardımlı Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifələrinə təyin olunmuş, Ağdam Rayon Təhsil Şöbəsində baş mühasib vəzifəsinə namizəd müsahibədən keçə bilməmişdir.

**11.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 07 avqust 2012-ci il tarixdə elan etdiyi müsabiqəyə Təhsil Nazirliyi sistemi üzrə 53 vəzifə üzrə 74 vakant yer təqdim olunmuşdur. 74 vakant yerə 508 nəfər ərizə vermiş, 5-ci təsnifat üzrə vakant inzibati vəzifələrin tutulması üçün test imtahanında iştirak etmiş, 240 nəfərdən talnız 40 nəfəri müsahibə mərhələsinə buraxılmışdır.

**12.** Azərbaycan Respublikası Prezidentinin 04 sentyabr 2007-ci il tarixli 2373№-li Sərəncamı ilə təsdiq olunmuş "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatının təsis edilməsi ilə bağlı keçirilmiş müsabiqənin 2-ci mərhələsində iştirak edən fənn müəllimlərinin "Nümunəvi dərs"lərinin təşkili və qiymətləndirilməsinin idarəolunması ilə bağlı prosesdə şöbənin əməkdaşları iştirak etmişlər. Həmin fənn müəllimlərinin keçdikləri dərslərin dinlənilərək müzakirə olunması, rəylərin ümumiləşdirilərək qiymətləndirilməsində obyektivliyin təmin olunması və prosesin düzgün tənzimlənməsi üçün şəraitin yaradılmasına nəzarət edilmişdir.

**13.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2012/2013-cü dərs ilinə ümumi təhsil məktəbləri üzrə rəsmi statistik hesabat formalarında əlavələrlə bağlı təkliflər hazirlanaraq ümumiləşdirilməsi üçün İqtisadiyyat şöbəsinə təqdim olunmuşdur. 1-ÜMT (toplu) №-li formanın (illik) VI bölməsinin fənn üzrə kadra ehtiyacda təkcə fənn və məktəb deyil məktəbin rayon mərkəzindən məsafəsinin, vakant yerlərə göndərilən kadrların sayı ilə bərabər həvəsləndirmə tədbirləri tətbiq olunanların göstərilməsi, müddətli əmək müqaviləsi ilə işləyənlərin sayına əvəzçilik qaydasında işləyənlərin, yaşı 65-dən yuxarı olan işçilərin (rəhbər və pedaqoji kadrlar ayrıca göstərilməklə), onlardan müddətli əmək müqaviləsi bağlananların sayının əlavə olunması, 1-müəllim №-li formaya əlavədə pedaqoji işçilərin tərkibi bölməsində qeyri-pedaqoji ixtisas təhsillilərin sayının (ali və orta ixtisas təhsillilər ayrıca göstərilməklə) verilməsi və s. barədə təkliflər verilmişdir.

**14.** Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun İri Sığorta Edənlərlə İş üzrə Departamenti tərəfindən Təhsil Nazirliyinə göndərilmiş məktubla bağlı "Sığorta olunanların 01.01.2006-cı il tarixinə olan ümumi əmək stajları" barədə informasiyanın toplanıb avtomatlaşdırılması üçün "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən əmək pensiyalarının təyin edilməsi, sosial sığorta stajının müəyyən olunması, əmək pensiyası sənədlərinin rəsmiləşdirilməsi, baxılması və saxlanılması qaydalarına uyğun zəruri olan məlumatların həmin departamentə təqdim olunması məqsədilə təlimati məktub hazırlanaraq Təhsil Nazirliyinin tabeliyindəki idarə, müəssisə və təşkilat rəhbərlərinə göndərilmişdir.

**15.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında qulluq keçən dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı dövlət orqanlarının struktur bölmə rəhbərləri üçün keçirilən təlimlərdə iştirak edilərək hazırlanan sənəd layihəsinə təkliflər verilmişdir.

**16.** Təhsil Nazirliyi sistemi üzrə daimi dövlət qulluğuna qəbulla bağlı əmək müqaviləsi forması və təsdiqi ilə bağlı əmr layihəsi hazırlanaraq baxılmaq üçün təqdim olunmuşdur.

**17.** Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli 1578 №-li Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azadılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 4.1.2.1.1-ci bəndinin icrası ilə bağlı "Dövlət orqanlarında kadr siyasətinin inkişafı strategiyası layihəsinə dövlət orqanlarında çalışan dövlət qulluqçularının peşəkar inkişafı üçün istər ölkə daxilində, istərsə də xaricdə davamlı təlimlər mexanizminin hazırlanması, neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində respublikanın dövlət orqanlarında daha çox tələb duyulan sahələr üzrə kadrların xarici dövlətlərin qabaqcıl ali təhsil müəssisələrində təhsilinə imkanların genişləndirilməsi, eyni zamanda, həmin kadrların dövlət orqanlarında işə cəlb edilməsi məqsədilə stilmullaşdırıcı tədbirlərin tətbiqi, dövlət orqanlarının işinin təkmilləşdirilməsi məqsədilə xarici ölkələrin müvafiq dövlət orqanları ilə qarşılıqlı əlaqələrinin gücləndirilməsi, dövlət orqanlarında vakant yerlərə kadrların işə qəbulu mexanizminin təkmilləşdirilməsi, müsabiqədən müvəffəqiyyətlə çıxmış namizədlərlə keçirilən müsahibənin aidiyyəti qurumda mütəxəssislər tərəfindən aparılaraq seçilməsi, dövlət qulluqçularının əməyinin ödənilməsi və stimullaşdırılması sahəsində müasir maliyyələşmə müxanizmlərinin tətbiqi ilə bağlı təkliflər verilmişdir.

Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya göndərilmiş təkliflərdə "Dövlət orqanlarında kadr siyasətinin inkişafı strategiyası"nın layihəsinin ayrı-ayrı bənd və maddələrində dəyişikliklərin aparılması ilə bağlı fikirlər də öz əksini tapmışdır.

**18.** Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında bağlanmış Baş Kollektiv Sazişin 6.2.3 yarımbəndinə uyğun olaraq sosial tərəfdaşlarından ibarət daimi fəaliyyət göstərən iqtisadi və sosial məsələlər üzrə üçtərəfli komissiyanın Əsasnaməsi layihəsinin 5-ci maddəsinə qərar qəbuletmədə səsvermənin nəticələri ilə bağlı təklif verilmişdir.

**19.** Təhsil Nazirliyi sisteminə daxil olan vakant inzibati dövlət qulluğu vəzifələrinə sənəd verən namizədlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə "Təşkilati-hüquqi sənədlər və inzibati vəzifələr haqqında Məlumat Toplusunda" 5-7-ci təsnifat inzibati vəzifələrin tutulması üçün təhsilə qoyulmuş tələblərə dəyişiklik edilmiş və dövlət təhsil standartlarına müvafiq olaraq verilən peşə-ixtisas dərəcələrindən yeni istiqamətlər (ixtisaslar) həmin tələblərin siyahısına əlavə olunmuşdur..

**20.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı (GİZ) ilə birgə "Xidməti fəaliyyətin qiymətləndirilməsi vasitəsi ilə dövlət qulluğunda səmərəliliyin artıtılması" mövzusunda beynəlxalq konfrans keçirilmiş və şöbənin əməkdaşı həmin komfransda iştirak etmişdir.

**21.** 2012-ci ilin oktyabr-noyabr aylarında bütün rayon təhsil şöbələrindən məktəb şəbəkəsi ilə bağlı hesabatlar qəbul edilmiş, rayonda kadra olan tələbat, müəllim/şagird nisbəti, ümumtəhsil məktəblərində şagird və müəllim sayının dəyişməsi səbəbləri araşdırılaraq rəy bildirilmişdir. Eyni zamanda rayonların ümumtəhsil məktəblərindən məktəbdəki ştatlı, əvəzçi,

saathesabı müəllimlərin sayını, müəllim/şagird nisbəti, sinif komplektlərinin pillələr üzrə sayını, kadrların təhsil səviyyəsi üzrə bölgüsünü, işə qəbul olunan və işdən çıxarılan kadrların sayını, onların dərs saatına, cinsinə, yaşına görə bölgüsünü, ixtisasartırma və yenidənhazırlanma təhsilinə cəlbini, təyinatla iş yerinə gəlmiş kadrlar barədə məlumatları əhatə edən kadrların faktiki tərkib quruluşu və kadrlara olan real tələbat barədə hesabatlar toplanılmışdır. Kadrlara olan real tələbat barədə hesabat forması ümumi təhsil məktəblərində tədris olunan fənlər üzrə ştatlı, əvəzçi, saathesabı qaydasında işləyən müəllimlər, hər hansı fənn üzrə təyinat yerinə gələn və kadra olan tələbat barədə məlumatların əldə edilməsi, problemlərin aradan qaldırılması üçün atılacaq addımların istiqamətini müəyyənləşdirməyə imkan verir.

**22.** 2012-ci ilin hər yarımilliyində Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının sayı, ixtisas dərəcələri, yaşa, cinsə və qulluq stajına görə tərkibi analiz edilərək hazırlanmış hesabat Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Nərimanov şöbəsinə təqdim olunmuşdur.

**23.** İl ərzində Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının mütəmadi olaraq reyestrinin aparılması ilə əlaqədar müvafiq məlumatlar mövcud kompüter proqramında bazaya daxil edilmiş və həmin məlumatlar Prezident Administrasiyasına və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya göndərilmişdir.

**24.** Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının qulluq stajından asılı olaraq əmək haqlarına əlavələrin hesablanaraq ödənilməsi üçün hər ay müvafiq təqdimat və əmrlər hazırlanmışdır.

**25.** 2012-ci ildə təhsil sistemində çalışmış 264 işçiyə "Əmək veteranı" kitabçası verilmişdir.

**26.** İl ərzində təhsil işçilərinə fəxri adların verilməsi, dövlət təltiflərinə namizədlər haqqında məlumatların hazırlanması və təltif olunanların şəxsi işlərinin toplanması, Təhsil Nazirliyinin təltiflərinin verilməsi üzrə sənədləşdirmə işlərinin aparılması həyata keçirilmişdir. 2012-ci il ərzində 240 nəfərin Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı və 228 nəfərin Fəxri Fərmanla təltif edilməsi üzrə sənədləşdirmə işləri yerinə yetirilmiş, o cümlədən, 2012-ci ildə dövlət təltifi almış təhsil işçilərinin şəxsi işləri, məlumat kartları və barələrində elektron arayışlar hazırlanmış və Prezident Administrasiyasına təqdim olunmuşdur.

**Əlavə təhsil.** Azərbaycanın təhsil sisteminin inkişafında əvəzedilməz yeri olan pedaqoji kadrların əlavə təhsilinin həyata keçirilməsində uğur qazanmaq üçün rəqabət mühiti yaranmışdır. Əlavə təhsil müəssisələri arasında tədris-maddi bazasına, kadr potensialına görə rəqabət apara biləcək müəssisələr çoxdur. Bu gün təhsil sistemində çalışan bütün kadr potensialını auditoriya şəraitində əlavə təhsilə cəlb etmək qeyri-mümkündür. Amma təhsilini artırmadan, təhsil sistemindəki yeniliklərdən xəbər tutmadan uğur qazanmaq olmaz. Əlavə təhsilin çevik formalarını axtarıb tapmaq, dayaq məntəqələrinin fəaliyyətini canlandırmaq, metodik korpusun təhsil müəssisələrində çalışanlarla əlaqələrini genişləndirmək, distant təhsil üçün əməkdaşlıq mühiti yaratmaq və s. əlavə təhsil sahəsində çalışan hər bir əməkdaşın qarşısında duran problemdir. Əlavə təhsil sahəsində icraya nəzarətin gücləndirilməsi bu fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması üçün ən zəruri şərtdir.

Belə ki, hesabat ili ərzində şöbə tərəfindən əlavə təhsil sahəsində mühüm və vacib tədbirlər səmərəli şəkildə təşkil edilmiş və həyata keçirilmidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 sentyabr 2010-cu il tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na uyğun olaraq məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün

ixtisasartırma təhsilinin modul-kredit əsaslı yeni model üzrə həyata keçirilməsini, ixtisasartırma təhsili sistemində rəqabət mühitinin formalaşdırılmasını təmin etmək üçün müvafiq normativ-hüquqi bazanın yaradılması istiqamətində işlər davam etdirilmişdir. Bu məqsədlə “Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi” və “İxtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə dair təlimat” hazırlanmış və Təhsil Nazirliyinin 18.04.2012-ci il tarixli, 597 nömrəli əmri ilə təsdiq edilmişdir. Həmin əmrə müvafiq olaraq, ixtisasartırma təhsili üzrə proqramların qiymətləndirilməsinə dair 2012-ci ilin oktyabr ayında elan verilmiş və dekabrın 29-dək proqramların qəbulu aparılmışdır. Azərbaycan Müəllimlər İnstitutu və onun filiallarından, Bakı Pedaqoji Kadrların İxtisasartırma və yenidənhazırlanma İnstitutunundan, Azərbaycan Dövlət Pedaqoji Universitetindən, Lənkəran Dövlət Pedaqoji Universitetindən və Əlavə Təhsil Mərkəzindən rəhbər və pedaqoji işçilərin ixtisasartırma təhsili üzrə ümumilikdə 178 adda proqram qiymətləndirməyə təqdim edilmişdir.

Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin “Pedaqoji kadrlar üçün ixtisasartırma təhsilin müasirləşdirilməsi” komponentinin “İcra planı”na əsasən 2012-ci ilin iyun-sentyabr aylarında yeni fənn kurikulumlarının tətbiqi ilə bağlı 2012-2013-cü tədris ilində V siniflərdə dərs deyəcək fənn müəllimlərinin 10 günlük (60 saat) təlim kurslarına cəlb edilməsi ilə əlaqədar təşkilati işlər yerinə yetirilmiş, təlimlərlə bağlı hazırlıq işləri aparılmış, siyahılar dəqiqləşdirilmiş və təlimçilərin müsahibə vasitəsilə seçimi aparılmışdır. Həmçinin tenderdə qalib gəlmiş və təlim kurslarını həyata keçirmək hüququ qazanmış təşkilatlarla əlaqə yaradılmış, təlimlərin müntəzəm və səmərəli keçirilməsinə, davamiyyətin nəzarətdə saxlanılmasına, koordinatorlarla daim əlaqədə olmasına və bu istiqamətdə onlara müvafiq köməklik göstərilmişdir.

Eyni zamanda V siniflərdə dərs deyəcək fənn müəllimləri üçün yeni ümumu orta təhsil kurikulumu üzrə təlim kurslarının monitorinqini keçirmək məqsədilə şöbənin əməkdaşları Təhsil Nazirliyinin 29.06.2012-ci il tarixli, 11/605 nömrəli əmri ilə iyun-iyul aylarında rayonlara ezam olunmuşlar.

40 minə yaxın müəllimin kursdan keçirilməsi ilə yekunlaşan təlimlərin nəticələri ümumiləşdirilmiş, həmin nəticələrə dair hesabatlar təhlil edilmiş və rəy hazırlanaraq rəhəbrliyə təqdim edilmişdir.

Təlim kurslarının nəticələri ilə bağlı 17 noyabr tarixində “2012-2013-cü tədris ilində V siniflərdə işləyəcək müəllimlər üçün keçirilmiş təlim kurslarının nəticələri” adlı məruzə-təqdimat əsasında Kollegiya iclası keçirilmiş, nəticələr həmin iclasda müzakirə edilmiş, həmçinin Kollegiya qərarı və onun icrasına dair əmr təsdiq edilmişdir.

Həmçinin təhsili idarəetmə orqanlarının rəhbər işçilərinin və məktəb direktorlarının yeni kurikulumların tətbiqi üzrə təlimlərdən keçirilməsi üçün təşkilati işlər yerinə yetirilmişdir. Təhsil Nazirliyinin 18 sentyabr 2012-ci il tarixli 1491 nömrəli əmri ilə təhsili idarəetmə orqanlarının rəhbərləri və ümumi təhsil müəssisələrinin direktorları üçün 30 saatlı (5 günlük) təlim kursları təşkil edilmiş və “Ümumi təhsildə kurikulum islahatı və onun idarə olunması” mövzusunda təlim proqramı təsdiq edilmişdir. 4065 nəfər rəhbər kadrların təlimlərdən keçirilməsi planlaşdırılmış, təlimlərə başlamamışdan əvvəl yerlərdə siyahılar dəqiqləşdirilmiş, təlim qrupları formalaşdırılmış və təlimlərlə bağlı digər təşkilati məsələlər həll edilmişdir.

Azərbaycan Müəllimlər İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Bakı Pedaqoji Kadrların İxtisasartırma və yenidənhazırlanma İnstitutunun təqdimatları əsasında yenidənhazırlanma təhsilinə cəlb olunmaq üçün ərizə verən müəllimlərin şəxsi işləri araşdırılmış və mövcud qaydaların tələblərinə cavab

verənlərin müsahibəyə buraxılmasına dair razılıq məktubu və siyahılar hazırlanaraq rəhbərliyə təqdim edilmişdir.

**Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi çərçivəsində 2012-ci il tarixində görülmüş və 2013-cü il üçün nəzərdə tutulmuş işlər.**

***Komponent 1: Ümumi mövzular üzrə kadr potensialının gücləndirilməsi.***

***<u>Görülmüş işlər:</u>***

Bu komponent benefisiar qurumlar üçün ümumi idarəetmə üzrə təlimlərin təşkil olunmasını, layihələrin hazırlanması və icrası ilə məşğul olan nazirlik və qurumların müvafiq mövzular üzrə potensialının artırılmasını nəzərdə tutur. 1-ci komponent çərçivəsində bu günədək **940** nəfər iştirakçı üçün təlimlər həyata keçirilmişdir. Təlimlərin sonunda imtahan nəticələrindən və iştirak göstəricilərindən asılı olaraq iştirakçılar sertifikatlarla təmin edilmişdir. Komponent 1 üzrə keçirilmiş təlim mövzularının siyahısı aşağıda verilmişdir:

| | |
|---|---|
| **1.** | Dövlət və özəl sektor arasında tərəfdaşlığın əsasları |
| **2.** | İnformasiya sistemlərinin idarə olunması |
| **3.** | Azərbaycan Qanunvericiliyi əsasında satınalmalar |
| **4.** | Beynəlxalq Maliyyə Qurumlarının standartları əsasında satınalmalar |
| **5.** | Əsas İdarəetmə Bacarıqları |
| **6.** | Beynəlxalq Maliyyə Qurumlarının standartları əsasında satınalmalar |
| **7.** | Ətraf mühitin idarəolunması ISO 9001/14001 keyfiyyət standartlarına giriş |
| **8.** | İdarəetmə ISO 9001-2008 keyfiyyət standartına giriş |
| **9.** | Əməyin təhlükəsizliyi ISO 18001 keyfiyyət standartına giriş |
| **10.** | Texniki-iqtisadi əsaslandırma və xərc-gəlir təhlili |
| **11.** | Statistik təhlil |
| **12.** | Əmək Qanunvericiliyi |
| **13.** | Risklərin Idarəolunması |
| **14.** | İnsan resurslarının idarəolunması |
| **15.** | Monitorinq və qiymətləndirmə |
| **16.** | Texniki-iqtisadi əsaslandırma və xərc-gəlir təhlili |
| **17.** | Tikintiyə nəzarət üçün FİDİC (Məsləhətçi-Mühəndislərin Beynəlxalq Assosiasiyası) müqavilə şərtlərinin izahı |
| **18.** | Layihələrin idarəolunması |
| **19.** | Beynəlxalq Maliyyə Qurumlarının Standartları əsasında Maliyyə İdarəetməsi |
| **20.** | Beynəlxalq Maliyyə Hesabat Standartları (BMHS) |

***<u>2013-cü il üçün nəzərdə tutulmuş işlər:</u>***

Layihənin 2013-cü il üçün icra planı üzrə bu komponent çərçivəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. Dövlət və özəl sektor arasında tərəfdaşlıq mövzusunda təlimin keçirilməsi
2. Layihələrin idarə olunması mövzusunda təlimin keçirilməsi
3. Statistik təhlil mövzusunda təlimin keçirilməsi
4. Beynəlxalq Maliyyə Hesabatı Standartları əasında Sertifikatlaşdırma mövzusunda təlimin keçirilməsi
5. Dövlət sektorunda dəyişikliklərin idarə edilməsi mövzusunda təlimin keçirilməsi

6. İxracın stimullaşdırılması mövzusunda təlimin keçirilməsi
7. Xərc-gəlir təhlili mövzusunda təlimin keçirilməsi
8. Benefisiar təşkilatların mütəxəssis heyəti üçün xaricdə təlim və stajkeçmə proqramlarının təşkili

***Komponent 2: Sektorlar üzrə potensialın gücləndirilməsi.***

***Görülmüş işlər:***

Bu komponent benefisiar təşkilatların fəaliyyət sahələrinə dair texniki biliklərin və qabiliyyətlərin əldə edilməsini, xüsusən də yol və nəqliyyat, eləcə də su təchizatı və sanitariya sahəsində təlimlərin təşkilini nəzərdə tutur. Sözügedən komponent çərçivəsində **808** nəfər iştirakçı təlimlərdə iştirak etmişdir. Həmçinin, müvafiq benefisiar qurumların əməkdaşları yol və su sahələri üzrə mövzular üzrə xaricdə təlimlərdə və tədris səfərində iştirak edərək sertifikat əldə etmişdirlər. Hal-hazırda benefisiar qurumların əməkdaşlarının müvafiq sahələr üzrə xaricdə uzunmüddətli təlim proqramları/ixtisasartırmaya göndərilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Komponent 2 üzrə yerli və xaricdə keçirilmiş təlim mövzularının siyahısı aşağıda verilmişdir:

| | |
|---|---|
| **1.** | Hövsan Aerasiya Stansiyasının səmərəli fəaliyyəti və istismarı |
| **2.** | Su təchizatı təmizləyici qurğularının əməliyyat və istismarı" üzrə təlim |
| **3.** | Su təchizatı və kanalizasiya sistemlərinin layihələndirilməsi üzrə Avropa Direktivləri və seçilmiş Beynəlxalq Standartların şərhi" mövzusunda təlim |
| **4.** | Su ehtiyatlarının və tələbatlarının idarəolunması |
| **5.** | Coğrafi İnformasiya Sistemləri (GİS) |
| **6.** | Bərk Tullantıların İdarəolunması |
| **7.** | Ətraf Mühit təhlükəsizliyi və Ətraf Mühit İdarəçiliyi Planı |
| **8.** | Yol istismar işləri üzrə əsas metodlar (Gəncə) |
| **9.** | Yük daşımalarının idarə olunması |
| **10.** | Beton yolların istismarı |
| **11.** | Torpaqların dövlət ehtiyacları üçün alınması və köçürülmə |
| **12.** | Az vəsait hesabına yol hərəkətinin təhlükəsizliyinin təkmilləşdirilməsi tədbirləri |
| **13.** | Körpülərin istismarı və onlara nəzarət |
| **14.** | Yol örtüyü texnologiyası |
| **15.** | Şəhər yollarının istismarı |
| **16.** | Yol tikintisi və istismarında Azərbaycanın səciyyəvi geotexniki xüsusiyyətlərinin nəzərə alınması |
| **17.** | Urbanlaşdırılmış və sənaye landşaftlarında bioloji müxtəlifliyin zənginləşdirilməsi |
| **18.** | Torpaqların kadastr qiymətləndirilməsi |
| **19.** | Ekoloji investisiya layihələrinin hazırlanması |
| **20.** | Alternativ enerji mənbələrinin tətbiqi |
| **21.** | Layihənin büdcələnməsi və xərclərə nəzarət (Kanada) |
| **22.** | Həftənin 7 günü və 24 saatı ərzində suyun təchizatı və ötürülməsi mexanizmləri (Sinqapur) |
| **23.** | İşlənmiş suların idarə edilməsi (Sinqapur) |
| **24.** | HDM-4 2-ci versiyanın istifadəsi üzrə təcrübə (Fransa) |

**25.** “Təhsil prosesi və su sistemlərinin idarə olunması” mövzusunda tədris səfəri (Cənubi Koreya)
**26.** Transcad proqram təminatının idarəolunması
**27.** İnteqrasiya olunmuş su resurslarının idarəolunması.

***<u>2013-cü il üçün nəzərdə tutulmuş işlər:</u>***

“Azəryolservis” ASC-nin “Azəryolelmitədqiqat” İnstitutunun əməkdaşları üçün Türkiyə Cümhuriyyətinin Türk İşbirliyi və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə “Yol sektorunda laboratoriya şəraitində test sınaqlarının aparılması” mövzusunda Türkiyədə ixtisasartırma və stajkeçmə proqramı təşkil olunacaqdır. Proqramın “Karayolları Genel Müdürlüğü”nün idarələrində 2013-cü ilin 7 yanvar-3 mart tarixlərində həyata keçirilməsi planlaşdırılır. Həmçinin su sektoru üzrə (“Hidrotexnika” mövzusunda) xaricdə ixtisasartırma və stajkeçmə proqramının təşkil olunması nəzərdə tutulur.

***Komponent 3: Potensialın gücləndirilməsini dəstəkləyən fəaliyyətlər.***

***<u>Görülmüş işlər:</u>***

Bu komponent çərçivəsində təlim və kadr potensialının gücləndirilməsi tədbirlərinin səmərəliliyinin artırılmasına yönəlmiş fəaliyyətlər, kadr potensialı ehtiyaclarının qiymətləndirilməsi, kadr potensialı quruculuğu strategiyasının hazırlanması kimi tədbirlər nəzərdə tutulmuşdur. Bu istiqamətdə “Azəryolservis” ASC üçün təlim ehtiyaclarının qiymətləndirilməsi həyata keçirilmişdir. Bundan əlavə, 3-cü komponent çərçivəsində Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, “Azərsu” ASC, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında kadr potensialının gücləndirilməsini dəstəkləyən bir sıra fəaliyyətlər həyata keçirilməkdədir. **Komponent 3** üzrə potensialın gücləndirilməsini dəstəkləyən fəaliyyətlərin siyahısı aşağıda verilmişdir:

1. **İqtisadi İnkişaf Nazirliyinin** sifarişi əsasında dövlət investisiya layihələrinin hazırlanması, qiymətləndirilməsi və icrası ilə bağlı qanunvericiliyin ekspertizası, eləcədə dövlət investisiya layihələri üçün layihələrin icrası üzrə nümunəvi təlimat formasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi və İqtisadi İnkişaf Nazirliyinin müvafiq əməkdaşlarından ibarət işçi qrupu yaradılmışdır və işçi qrupun bir sıra iclasları keçirilmişdir. Bu məqsədlə cəlb edilmiş beynəlxalq məsləhətçi tərəfindən müvafiq qanunvericilik qiymətləndirilmiş, təklif və tövsiyələr təqdim edilmişdir. Bu sahədə beynəlxalq təcrübəni öyrənmək məqsədilə İqtisadi İnkişaf Nazirliyinin müvafiq mütəxəssis heyətinin xarici ölkələrə tədris səfərinin təşkili üçün təkliflər hazırlanmış, səfərlər təşkil olunacaq ölkələrin müvafiq mütəxəssisləri ilə müzakirələr aparılmışdır.
2. **Təmiz Şəhər ASC-də** effektiv monitorinq və qiymətləndirmə sisteminin yaradılması üçün texniki yardımın göstərilməsi məqsədilə DİKPG Layihəsinə müraciət daxil olmuşdur. Bu müraciət əsasında Layihə çərçivəsində cəlb edilmiş monitorinq və qiymətləndirmə üzrə beynəlxalq məsləhətçi “Təmiz Şəhər” ASC-in işçi heyəti və rəhbərliyi ilə birgə işləyərək Korporativ Fəaliyyət Prosesinin yaradılması üçün lazımi dəstək göstərmişdir.
3. **“Azərsu” ASC-də** təlim ehtiyaclarının qiymətləndirilməsi üzrə rəhbər və mütəxəssis heyətlə fokus qrup və müsahibələr keçirilmiş və müəssisədə təlim və inkişaf ehtiyaclarının əsas istiqamətləri müəyyən edilmişdir. Cəlb edilmiş beynəlxalq

məsləhətçi şirkət tərəfindən bu tövsiyə və təklifləri əhatə edən hesabatın layihəsi hazırlanaraq müzakirə üçün təqdim edilmişdir.

4. **Azərbaycan Memarlıq və İnşaat Universitetində** tədris proqramının yeniləşdirilməsi və təkmilləşdirilməsi üçün beynəlxalq məsləhətçi seçilmişdir. Məsləhətçi tərəfindən Su Təsərrüfatı və Mühəndis Kommunikasiya Sistemləri fakültəsində bakalavr və magistr ixtisasları üzrə tədris proqramları qiymətləndirilərək təklif və tövsiyələr verilmiş, "Tullantısız istehsalat prosesləri və tullantıların təkrar emalı" və "Ekoloji monitorinq" fənlərinin proqramları təkmilləşdirilmişdir. Magistr səviyyəli "Bərk tullantıların emalı texnologiyası" üzrə yeni ixtisaslaşma Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli qərarı ilə təsdiqlənmişdir. 2012-ci tədris ilindən sözügedən ixtisaslaşma üzrə magistr proqramının tədrisinə başlanılmışdır. Kurikulum və fənn proqramları tərtib edilmişdir.
5. **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın** rəhbər heyəti ilə müzakirələr təşkil edilmiş, dövlət qulluqçularının potensialının gücləndirilməsi istiqamətində davamlı mexanizmlərin yaradılması məqsədilə "Dövlət qulluqçularının ixtisasartırma təhsilinin minimum həddinin dövlət sifarişi ilə maliyyələşdirilməsi" qaydalarının layihəsi hazırlanmışdır.
6. **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında** 2012-ci tədris ilindən başlayaraq Layihələrin İdarəolunması ixtisası üzrə magistr proqramının tədrisinə başlanılmışdır. Sözügedən ixtisas üzrə magistr proqramının kurikulumunun yaradılması üçün cəlb olunmuş beynəlxalq məsləhətçi tərəfindən müvafiq fənnlər üzrə tədris planı və materialları hazırlanmışdır. Magistr proqramının açılış mərasimi 21 sentyabr 2012-ci il tarixində Dövlət İdarəçilik Akademiyasında kütləvi informasiya vasitələrinin iştirakı ilə keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Təhsil Naziri cənab Misir Mərdanov, Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, beynəlxalq məsləhətçi Kanadanın Kvebek Universitetinin professoru Larisa Şavinina və akademiyanın professor müəllim heyəti iştirak etmişdir.

***<u>2013-cü il üçün nəzərdə tutulmuş işlər:</u>***

Yuxarıda qeyd olunmuş fəaliyyətlərin 2013-cü ildə də davam etdirilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında** İnsan resurslarının idarəolunması ixtisası üzrə magistr kurikulumunun yaradılması, **"Azərsu" ASC** və **"Azərenerji" ASC-də** müasir İnsan resurslarının idarəolunması şöbəsinin fəaliyyətinin təkmilləşdirilməsi üçün texniki dəstəyin göstərilməsi nəzərdə tutulur.

***Komponent 4: Layihənin icrası.***

***<u>Görülmüş işlər:</u>***

Bu komponentə Layihənin Əlaqələndirmə Qrupunun saxlanılması, layihənin monitorinqi üzrə fəaliyyətlər, layihənin auditi və layihənin icrası ilə bağlı digər fəaliyyətlər daxildir.

4-cü komponent çərçivəsində layihənin internet səhifəsi (<u>www.training.gov.az)</u> yaradılmışdır. Təlimlərdə iştirak edənlər, təlimi keçən təşkilatlar və təlimlərin proqramları barəsində məlumatlar, təlimlərin yekunlarına dair hesabatlar Layihənin internet səhifəsində yerləşdirilmişdir. Layihənin irəliləyişinə dair hesabatlar vaxtı-vaxtında hazırlanıb İqtisadi İnkişaf

Nazirliyinə və Dünya Bankına təqdim edilmişdir. Həmçinin DİKPG Layihəsi çərçivəsində bu günədək keçirilmiş təlimlərin effektivliyi, iştirakçıların gündəlik işinə həmin təlimlərin müsbət təsirinin qiymətləndirilməsi ilə bağlı hesabatlar hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Bundan əlavə Azərbaycan Memarlıq və İnşaat Universitetində və Azərbaycan Dövlət İqtisad Universitetində bütün lazımı avadanlıqlarla təchiz edilmiş təlim mərkəzləri yaradılmışdır. Həmçinin sözügedən komponent daxilində Layihə çərçivəsində həyata keçirilmiş işlərin monitorinqini aparmaq məqsədilə monitorinq və qiymətləndirmə üzrə beynəlxalq məsləhətçi Valid Madhun cəlb edilmişdir. O, cari dövrə qədər icra edilmiş və növbəti dövrlər üçün planlaşdırılan işlərin monitorinq və qiymətləndirməsini apararaq hesabat tərtib etmişdir. Monitorinq və qiymətləndirmə üzrə beynəlxalq məsləhətçinin hesabatı Nazirlər Kabinetinə təqdim edilmişdir.

***2013-cü il üçün nəzərdə tutulmuş işlər:***

Layihənin internet səhifəsinin daim yeniləşdirilməsi, monitorinq və qiymətləndirmə üzrə beynəlxalq məsləhətçi tərəfindən işlərin davam etdirilməsi, o cümlədən Layihənin icrası ilə bağlı işlərin müntəzəm qaydada həyata keçirilməsi nəzərdə tutulur.

**DİKPG Layihəsinin yuxarıda qeyd olunmuş tədbirlərindən faydalanan benefisiar təşkilatların siyahısı:**

| | |
|---|---|
| **1.** | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi |
| **2.** | Azərbaycan Respublikası Maliyyə Nazirliyi |
| **3.** | Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| **4.** | Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi |
| **5.** | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| **6.** | Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi |
| **7.** | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **8.** | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **9.** | Kənd Təsərrüfatı Nazirliyi |
| **10.** | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya |
| **11.** | Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi |
| **12.** | Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi |
| **13.** | Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi |
| **14.** | Qiymətli kağızlar üzrə dövlət komitəsi |
| **15.** | "Azəryolservis" ASC |
| **16.** | "Azərbaycan Dəmir Yolları" QSC |
| **17.** | "Azərsu" ASC |
| **18.** | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC |

| | |
|---|---|
| **19.** | “Azərenerji” ASC |
| **20.** | Bakı Dövlət Universiteti |
| **21.** | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası |
| **22.** | Azərbaycan Dövlət İqtisad Universiteti |
| **23.** | Azərbaycan Memarlıq və İnşaat Universiteti |
| **24.** | Təmiz Şəhər ASC |

**O cümlədən, Naxçıvan Muxtar Respublikası üzrə:**

| |
|---|
| **25.** Naxçıvan MR İqtisadi İnkişaf Nazirliyi |
| **26.** Naxçıvan MR Maliyyə Nazirliyi |
| **27.** Naxçıvan MR Nəqliyyat Nazirliyi |
| **28.** Naxçıvan MR Ədliyyə Nazirliyi |
| **29.** Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **30.** Naxçıvan MR Ali Məclisin Sədri Yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya |
| **31.** Naxçıvan MR Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi |
| **32.** Naxçıvan MR Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi |
| **33.** Naxçıvan MR Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi |
| **34.** Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi |
| **35.** Naxçıvan MR Dövlət Energetika Agentliyi |
| **36.** Naxçıvan MR Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti |
| **37.** Naxçıvan MR Avtomobil Yolları Dövlət Şirkəti |
| **38.** Naxçıvan Dövlət Universiteti |

Nəticə olaraq bildirmək istərdik ki, il ərzində ölkə səviyyəsində təhsil nailiyyətlərini yüksəltmək məqsədilə inkişaf etdirilə biləcək sahələrin müəyyənləşdirilməsi üçün təhlillər aparılmış, təhsil siyasəti və strategiyasının müəyyənləşdirilməsi məqsədilə, həyata keçirilmiş və hazırda həyata keçirilən islahatlar barədə Hesabatlar, təhsil sektorunun ayrı-ayrı sahələri üzrə inkişaf proqramları, ölkədə təhsilin inkişafı ilə əlaqədar beynəlxalq və yerli qeyri-hökümət təşkilatların Hesabatları təhlil edilmiş və müvafiq təkliflər hazırlanmışdır.